Əgər Məmməd Səid Ordubadi yaşasaydı, indi 135 yaşı tamam olardı. O, 78 il yaşamışdır. M.S. Ordubadinin 78 il davam edən dünya səfərinin 50 ili zəhmətdə, ictimai-siyasi mübarizələrdə, sahilləri görünməyən bir ümmana bənzər bədii yaradıcılıqda, həbslərdə və sürgünlərdə keçmişdir.

M.S.Ordubadi ədəbiyyatımızın tarixinə bütün ömrünü azad və xoşbəxt bir cəmiyyət uğrunda mübarizəyə həsr edən görkəmli yazıçı, fəal ictimai xadim kimi daxil olmuşdur.



# Əbədiyaşar sənətkar

*«Həyat yalnız öz qələmlərini və fırçalarını böyük tarixi döyüş günlərində süngülərlə yanaşı bilən sənətkarları yaşatmışdır»*

*M.S.Ordubadi*

İyirminci əsr mütərəqqi Azərbaycan ədəbiyyatının yaranmasında, inkişaf və tərəqqisində böyük xidmətləri olan Məmməd Səid Ordubadi xalqımızın bədii söz tarixində əbədi ad qoymuş bir yazıçıdır. Onun çoxcəhətli, həm ədəbi, həm də ictimai fəaliyyəti zəmanəsinin irəli sürdüyü canlı, təxirəsalınmaz problemlərlə bağlı olmuşdur.

Bu problemlər mündəricə etibarı ilə çox çeşidli idi, siyasi, ictimai, iqtisadi, fəlsəfi, elmi, etik və estetik məsələləri əhatə edirdi. Ordubadini bu məsələlər məhz xalqın tərəqqisi, xalqın taleyi və gələcəyi ilə bağlı olduğu üçün maraqlandırır, cəlb edirdi.

M.S.Ordubadi ədəbiyyatın müxtəlif janrlarında yazıb-yaratmışdır. Azərbaycan ədəbiyyatı tarixində şair, publisist, dramaturq, tərcüməçi, libretto müəllifi kimi tanınan Ordubadi "Dumanlı Təbriz", "Gizli Bakı", "Döyüşən şəhər", "Dünya dəyişir", "Qılınc və qələm" kimi iri həcmli əsərləri ilə tarixi roman janrının yaradıcılarından biri kimi şöhrət qazanmışdır.

M.S.Ordubadi öz tarixi romanlarını əsasən 30-cu illərdə yazmışdır.

O nə məqsədlə tarixi romanlar yazdığını izah edərək deyirdi: "Azərbaycan xalqının tarixi irslərini üzə çıxarmaq lazımdır. Çünki nəslə özünün kim olduğunu göstərməklə, onun vətənpərvərlik duyğularını inkişaf etdirmək mümkün olacaqdır."

M.S.Ordubadi Cənubi Azərbaycanda "Dumanlı Təbriz"in əks etdirdiyi inqilabi hərəkatda iştirak etmiş və bir çox hadisələrin şahidi olmuşdur.

M.S.Ordubadinin müxtəlif janrlarda yazılmış əsərlərinin əksəriyyətində belə bir fikir bədii ifadəsini tapmışdır ki, hər bir adamın qiyməti onun vətən üçün, xalq üçün nə dərəcədə faydalı olmasındadır. Ümumiyyətlə, vətən və xalq motivləri onun ilk əsərlərindən tutmuş "Dumanlı Təbriz", "Qılınc və qələm" kimi iri həcmli romanlarına qədər bütün əsərlərinin ruhunu, canını təşkil edir, bütün yaradıcılığında leytmotiv kimi səslənir.

"Dumanlı Təbriz" və "Qılınc və qələm" romanları həm ictimai-fikri məzmununun genişliyi, həm də bədii gözəlliyi, bədii xüsusiyyətləri ilə respublikamızdan çox-çox uzaqlarda, minlərlə oxucunun məhəbbətini qazanmış əsərlər ədəbiyyatımızın, estetik fikrimizin inkişafında mərhələ təşkil edir. M.S.Ordubadinin ilk əsərlərindən başlayaraq bütün yaradıcılığı üçün səciyyəvi olan keyfiyyətlər – xalq və vətən məhəbbəti, beynəlmiləlçilik, inqilabi ideallara və zəhmətkeş kütlələrə tükənməz sədaqət, ictimai və milli zülmə, müstəmləkəçiliyə, soyğunçuluğa, cəhalətə, nadanlığa nifrət bu əsərlərdə daha parlaq bədii surətlərdə ifadə olunmuşdur.

M.S.Ordubadi çox oxumuşdur. Xüsusən Şərq dillərini,Şərq mədəniyyətini, rus xalqının ədəbiyyatını yaxşı bilirdi. Bu mənbələrdə ölməz, qiymətli və əbədi olan keyfiyyətləri o, daha artıq görür, sevirdi. O, həyatı sevən, insanları sevən, daim insanlarla ünsiyyətə meyl edən nəcib ürəkli, xeyirxah və sadə bir adam olaraq qalmışdır. Bütün bunlar isə onun böyük bir yazıçı kimi yüksəlməsinə, sevilməsinə, xalqın ədəbiyyat tarixini qiymətli əsərlərlə zənginləşdirməsinə kömək etmişdir.

M.S.Ordubadinin bir yazıçı kimi böyüklüyü ondadır ki, onun əsərləri heç vaxt köhnəlmir. "Dumanlı Təbriz", "Qılınc və qələm", "Gizli Bakı", "Döyüşən şəhər", "Dünya dəyişir" romanları dönə-dönə oxunurlar. Bu əsərlər bizi nəcib olmağa, vətəni, xalqı sevməyə, mübariz olmağa, beynəlmiləlçiliyə sədaqətli olmağa çağırır.

**Lalə ABAS-ZADƏ,**
**M.S.Ordubadinin xatirə muzeyinin direktoru**